# “Qara qan”ın müzakirəsi




Fevralın 24-də “Kitab evi”ndə yazıçı-publisist Fazil Güneyin “Qara qan” roman-trilogiyasının müzakirəsi keçirildi. Tədbiri giriş sözü ilə Kitab evinin rəhbəri Günel Anarqızı açdı, Xocalı faciəsinin 28-ci ildönümü ilə bağlı keçirilən silsilə tədbirlərin biri kimi xarakterizə etdi, “Qara qan” romanının Qarabağ faciəsini özündə reallığı ilə əks etdirən əsər olmasından danışdı və aparıcılıq üçün sözü filosof Rafiq Əliyevə verdi.

Filologiya elmləri doktoru, professor İsmayıl Kazımova məruzə üçün söz verildi. Professor romanın ədəbi-bədii-tarixi xüsusiyyətlərindən geniş şəkildə bəhs açdı, tarix və müasirliyin əsərdə vəhdət təşkil etdiyini diqqətə çatdırdı.

Zabitlərdən general Yaşar Aydəmirov, polkovnik Şair Ramaldanov, ilahiyyat üzrə fdəlsəfə doktoru Ceyhun Məmmədov və başqaları “Qara qan” romanında təsvir olunan hadisələrin real həyatdan götürüldüyündən, Qarabağ müharibəsinin ağrı-acılarından danışdılar. Əsərin 25 ildən çox vaxt ərzində yaranıb başa gələn gərgin yazıçı əməyinin məhsulu olduğunu qeyd etdilər.

Axırda yazıçı Fazil Güneyə söz verildi. Yazıçı romanı canlı həyati faktlar əsasında qələmə almasından danışdı və romanın sonunu - 4-cü hissəsini Qarabağın düşmən tapdağından azad olunacağı qələbə münasibəti ilə yazıb tamamlamaq arzusunu dilə gətirdi.

Əlifoğlu, Şakir.

Kredo 2020.- 6 mart.- S.10.